# İncəsənət Gimnaziyası milli-mənəvi dəyərlərimizin keşiyində

Milli Konservatoriya tərkibində fəaliyyət göstərən İncəsənət Gimnaziyasının yetirmələri hər il respublikadaxili və beynəlxalq tədbirlərdə fəal iştirak edirlər. Belə ki, şagirdlər Avroviziya mahnı müsabiqəsinin qalibi, Norveç təmsilçisi Aleksandr Ribakın bir müddət öncə Bakıya səfər çərçivəsində məşhur musiqiçinin "ustad dərs"lərdə iştirak ediblər. Şagirdlərlə yaratdığı sıx dostluq və əməkdaşlıq əlaqələri Heydər Əliyev Mərkəzində keçirilən möhtəşəm konsert proqramı ilə yekunlaşıb.

Gimnaziyanın iştirak etdiyi uğurlu layihələrdən biri də görkəmli rus yazıçısı M.Y.Lermontovun 200 illik yubiley tədbirləri olub. Həmin tədbirlərə respublikanın bütün pilot məktəbləri qatılaraq yüksək nəticələr əldə ediblər. Layihə 3 nominasiyadan ibarət olub: bədii qiraət müsabiqəsi, teatrlaşdırılmış səhnəciklər, təsviri və tətbiqi sənət nümunələrini özündə əks etdirən sərgi. Sevindirici haldır ki, qaliblər sırasına gimnaziyanın şagirdləri də daxil edilib. II yerə təsviri və tətbiqi sənət şöbəsinin şagirdi Ləman Aslanova, III yerə isə ədibin "Maskarad" əsərindən bir parçanı məharətlə ifa edən "Teatr" şöbəsinin şagirdləri Nigar Qasımova və Elmir Məmmədli layiq görülüblər.

Xüsusi əhəmiyyət kəsb edən tədbirlərdən biri də şagirdlərin iki il davamlı şəkildə həyata keçirilən şən və hazırcavablar klubuna qatılmasıdır. Birinci onluqda yer alan istedadlı hazırcavablar bununla kifayətlənməyib. Hazırda qaliblər sırasına yüksəlmək üçün gərgin mübarizə aparırlar.

Şagirdlərin fənn müsabiqələrində iştirakı da xüsusi əhəmiyyət kəsb edir. Fizika-riyaziyyat fənləri üzrə müsabiqəyə qatılan şagirdlər artıq müsabiqənin son mərhələsindədirlər.

Təhsil ocağında mütəmadi olaraq uğurla həyata keçirilən fəaliyyət sahələrindən biri də dərsdənkənar işin təşkilidir. Ümumtəhsil şöbəsi üzrə ardıcıl olaraq bütün siniflər, fənn müəllimlərinin və sinif rəhbərlərinin təşkilatçılığı ilə respublikanın tarixi-mədəni abidələrinə, muzey mərkəzlərinə, qoruq muzeylərinə, Heydər Əliyev Mərkəzinə və digər yerlərə ekskursiyalara qatılırlar.

Profil fənləri üzrə musiqi şöbəsinin fəaliyyəti də diqqətəlayiqdir. Artıq neçə illərdir ki, gimnaziya Norveç, İsveç, Nigeriya, Amerika və digər ölkələrin səfirlikləri ilə sıx yaradıcılıq və əməkdaşlıq istiqamətində maraqlı layihələrə imza atır. Hər il Norveçin və İsveçin müstəqillik günlərində musiqi şöbəsinin xor kollektivi, xalq çalğı və simli alətlər şöbələri əvvəl səfirliklərdə, sonra isə Azərbaycan Dövlət Filarmoniyasında zəngin konsert proqramları ilə çıxış edirlər.

İncəsənət Gimnaziyasının uğurla həyata keçirdiyi növbəti tədbirlərdən biri də Azərbaycan klassik ədəbiyyatının görkəmli nümayəndəsi C.Cabbarlının yaradıcılığına həsr olunan şeir müsabiqəsi olub. Həmin müsabiqədə məktəbin XI e sinif şagirdi Ləman Rəhimli birinci yerə layiq görülüb.



Təsviri və tətbiqi sənət şöbəsinin XI e sinif şagirdi Ləman Aslanova və sənət müəllimi Laləndar Novruzova "Azərbaycanın milli geyimləri rəssamların gözü ilə" mövzusunda keçirilən Respublika milli geyim müsabiqəsində fəxri fərmanlarla təltif ediliblər.

İncəsənət Gimnaziyası mütəmadi olaraq Fövqəladə Hallar Nazirliyi ilə sıx əməkdaşlıq şəraitində öz fəaliyyət planını həyata keçirir. Bu tədris ilində FHN-nin fəaliyyətinin 10 illiyinə həsr olunmuş təntənəli tədbirlərə İncəsənət Gimnaziyasının təsviri və tətbiqi sənət şöbəsinin 3 şagirdi qatılaraq II yerə layiq görülüb.

Önəmli və yaddaqalan tədbirlərdən biri də profil fənləri üzrə bütün şöbələrin qatıldığı, ilk dəfə məktəbdə qeyd olunan "Nar" festivalı olub. Festival çərçivəsində gimnaziyanın şagirdləri sənət nümunələri, rəngarəng konsert proqramı, səhnəciklər və al-əlvan rəqsləri ilə geniş auditoriyanın diqqətini cəlb edib.

Qeyd edək ki, Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq əmrinə əsasən, ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdlərinin iştirakı ilə "Milli-mənəvi dəyərlər haqqında düşüncələrim" mövzusunda keçirilən inşa yazı müsabiqəsində İncəsənət Gimnaziyasının XI sinif şagirdi Nigar Qasımzadə II dərəcəli diplomla mükafatlandırılıb.

Uğurları ilə respublika və beynəlxalq səviyyəli tədbirlərdə daim seçilən İncəsənət Gimnaziyası daha möhtəşəm layihələrə imza atmaq əzmindədir.

**Sifai SƏFƏROVA,**
*"Azərbaycan müəllimi"*

BÖLGƏ XƏBƏRLƏRİ